HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/89/8-13

Rafail Əhmədli
Azərbaycan Dövlət Pedaqoji Universiteti
fəlsəfə elmləri doktoru
ehmedli.rafail@mail.ru
Lalə Əhmədova
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
filologiya üzrə fəlsəfə doktoru
lala.ahmadova@sport.edu.az

MİRZƏ KAZIMBƏYİN DİLÇİLİK HAQQINDA DÜŞÜNCƏLƏRİ VƏ FƏALİYYƏTİ

Xülasə

Məqalədə görkəmli alim M.Kazımbəyin Azərbaycan, rus, ərəb, fars, türk dillərinə və digər humanitar elmlərin müxtəlif sahələrinə dair dəyərli əsərləri, Rusiya türkologiya elminin inkişafında dönüş nöqtəsi olan "Türk-tatar dilinin qrammatikası" adlı əsəri və onun türk dillərinin tədris edildiyi əksər məktəb, gimnaziya və universitetlərdə tədris edilməsindən bəhs olunur.

Eyni zamandam mütəfəkkirin "Qrammatika"sı haqqında görkəmli alimlərin yüksək fikirləri, mövcud olan dilçilik kitablarından üstünlükləri, əsərin həm elmi əsər, həm də tədris vəsaiti kimi uğurları, bütün XIX əsr boyu türk dilinin öyrənildiyi Avropa ali və orta məktəblərində əsas tədris vasitələrindən biri olması araşdırılır.

Açar sözlər: *Türk-tatar dilləri, şərqşünaslıq, qrammatika, Şərq dilləri, dərs vəsaiti, Türkologiya, universitet*

Rafail Ahmadli
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy
ehmedli.rafail@mail.ru
Lala Ahmadova
Azerbaijan State Physical Culture and Sports Academy
Ph.D. in Philology
lala.ahmadova@sport.edu.az

Views and activities of Mirza Kazembek on linguistics

Abstract

The article discusses the valuable works of the outstanding scientist M.Kazembek on the Azerbaijani, Russian, Arabic, Persian, Turkic languages and other humanities, his work "Grammar of the Turkic-Tatar language", which is a turning point in the development of Russian Turkic science. And also its teaching in most schools, gymnasiums and universities where Turkic languages were taught is also discussed.

At the same time, discusses the high marks of prominent scientists about the "Grammar" of the thinker, its advantages over existing linguistic books, the success of both scientific work and textbook as one of the main means of education in European higher and secondary schools, where the Turkish language was studied in throughout the 19th century.

Keywords: *Turk-tatar language, oriental studies, grammar, Eastern languages, schoolbook, Turkology, university*

Giriş

Mirzə Kazımbəyin dilçilik haqqında düşüncələri və fəaliyyəti

Görkəmli azərbaycanlı, alim-şərqşünas, dilçi, tarixçi, ədəbiyyatşünas, pedaqoq, maarifçi mütəfəkkir və ictimai xadim Məhəmməd Əli Hacı Qasım oğlu Mirzə Kazımbəy (1802-1870) təzadlı XIX əsrin yetirdiyi nadir şəxsiyyətlərdəndir. Bütün məlum məhrumiyyətlərə baxmayaraq, həmin dövrdə Azərbaycanda elmin müxtəlif sahələri də inkişaf edir. A.Bakıxanov, M.J.Topçubaşov, H.Z.Şirvani, M.F.Axundov, H.Zərdabi və başqa elm xadimlərinin bütöv bir nəsli meydana gəlir. O zamanlar azərbaycanlı alimlərdən bəziləri də Rusiyada yaşamış və burada şərqşünaslıq elminin əsasının qoyulması və inkişafında mühüm rol oynamışlar. Bunların sırasında M.Kazımbəyin özünəməxsus yeri vardır (Əfəndiyev, 2006).

Atasının Həştərxana sürgün edilməsi ilə əlaqədar olaraq on doqquz yaşlı Mirzə Kazımbəy vətəni Azərbaycanı tərk etməyə məcbur olmuş və sonrakı bütün şüurlu həyatını Rusiyada keçirmişdir. Özünün fitri istedadı, bacarığı, zehni qabiliyyəti və təbiətən əzmkarlığı sayəsində doğma ana dili-azəri turkçəsi ilə yanaşı, fars, ərəb, rus, ingilis, alman, fransız dillərinə, dini və dünyəvi elmlərin əsaslarına mükəmməl yiyələnmiş gənc Kazımbəy heç bir ali məktəb qurtarmadan qısa bir müddət ərzində adi mədrəsə şagirdliyindən universitet professorluğuna qədər yüksəlməsinə müvəffəq ola bilmiş, 33 yaşında Rusiya Elmlər Akademiyasının müxbir üzvi seçilmişdir. 1826-cı ildən Kazan universitetində Şərq dilləri üzrə mühazirəçiliklə pedaqoji fəaliyyətə başlamış M.Kazımbəy çox keçmədən burada türk-tatar dilləri kafedrasının müdiri (1828), fəlsəfə fakültəsinin birinci şöbəsinin dekanı (1845) kimi məsul vəzifələrə irəli çəkilmişdir. O, eyni zamanda Peterburq xüsusi pansion və məktəblərinin müfəttişi vəzifəsində də çalışmış, 1855-ci ildən isə ömrünün axırınadək Sankt-Peterburq Universitetinin şərqşünaslıq fakültəsinin ilk dekanı olmuş, həm də çar imperiyası paytaxtının bu möhtəşəm ali təhsil ocağında Şərq dilçiliyi kafedrasına rəhbərlik etmişdir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, ümumiyyətlə, "Rusiyada ali təhsilin təşkilində, dərs vəsaitlərinin yazılmasında, müəllim-professor kadrlarının hazırlanmasında Kazımbəyin xidmətləri böyükdür" (Fəlsəfə ensiklopedik lüğəti, 1997: 213).

Kazan şərqşünaslıq məktəbinin banisi, Kazan və Peterburq Universitetlərində fars, ərəb dili və ədəbiyyatı kafedralarınnı yaradıcısı və ilk müdiri, həmin ali məktəblərin əməkdar professoru, Peterburq universitetində şərqşünaslıq fakültəsinin təşkilatçısı olmuş M.Kazımbəy heç də təsadüfi deyildi ki, "Rusiya şərqşünaslığının patriarxı" kimi şərəfli bir ad qazanmışdır. Ömrünün 45 ildən çoxunu elmə, maarifə həsr etmiş alim M.Kazımbəy ümumrusiya məkanında böyük nüfuza malik olmuş, Rusiyada şərqşünaslığın yaranması və təşəkkülündə öndə getmişdir. Bu münasibətlə akademik V.V.Bartold vaxtilə yazmışdır ki, məhz "Senkovski və Kazımbəy öz mühazirələri ilə rus şərqşünaslığını yaratmışlar: demək olar ki, sonrakı şərqşünaslar nəslinin hamısı bu alimlərdən birinin tələbəsi və ya onların tələbələrinin tələbələri olmuşlar" (11, 22-283).

Bu da danılmaz bir həqiqətdir ki, M.Kazımbəy hələ öz sağlığında belə dünya şöhrəti qazanmış, əsərlərinin böyük əksəriyyəti ingilis, fransız, alman dillərinə də tərcümə edilərək nəşrləri Avropa və Asiya ölkələrində yayılmış, elmi ictimaiyyət arasında ciddi maraq doğurmuşdur. Məhz bu səbəbdən idi ki, o, Rusiya Elmlər Akademiyasından savayı, həm Böyük Britaniya, Almaniya, Fransa, Danimarka, Amerika Birləşmiş Ştatları və bir sıra digər ölkələrin Elmlər Akademiyalarının və elmi cəmiyyətlərinin üzvü seçilmişdir. Fərəhli haldır ki, səkkiz dildə sərbəst danışan və yazan M.Kazımbəy Rusiya şərqşünasları içərisində ilk dəfə "Şərq filologiyası doktoru" kimi yüksək elmi ada layiq görülmüş, dünya şərqşünaslıq elmini misilsiz töhfələri ilə zənginləşdirən filologiya, dilçilik və tarix sahəsindəki qiymətli tədqiqat əsərlərinə görə üç dəfə Rusiya Elmlər Akademiyasının "Demidov mükafatı"na, Böyük Britaniya kraliçasının brilyant üzüyünə layiq görülmüş, İran şahının ordeni ilə təltif edilmişdir (Əhmədli, 2012).

Ensiklopedik biliyə malik bir elm xadimi olan M.Kazımbəy bugünümüzün özündə belə aktuallığını saxlyan Azərbaycan, rus, ərəb, fars, türk ədəbiyyatı və dillərinə, Azərbaycan, Şərq xalqları tarixinə, müsəlman hüququna, ədəbi tənqidə, etnoqrafiyaya, etimologiyaya, nümizmatikaya,

mifologiyaya, etika, pedaqogiya və digər humanitar elmlərin müxtəlif sahələrinə dair yüzdən çox dəyərli əsərlər qoyub getmişdir. Şərq xalqlarının zəngin və çoxşaxəli ictimai-siyasi və fəlsəfi fikirlərinin araşdırılması onun əsərlərinin başlıca mövzularından olmuşdur. M.Kazımbəy müsəlman hüququnun Rusiyada ilk tədqiqatçısı, müsəlman Şərqində milli oyanış və qurtuluş mücadiləsinin tarixən bariz nümunəsi olan və mütəfəkkirin öz sözləri ilə desək, "şüurlu azadlığa doğru cəhdləri daha çox səciyyələndirən" (Kazımbəy, 62) Babilər hərəkatının elmi araşdırıcılarından biri, Azərbaycan dilinin ilk elmi qrammatikasının müəllifidir. O, hələ 17 yaşında ikən "Ərəb dilinin müxtəsər qrammatikası" əsərini yazmışdır.

Zəngin elmi potensiala və nəzəri təfəkkürə malik olan Mirzə Kazımbəy Avropa şərqşünaslarının əsərlərini mütəmadi oxuyur, dilin qrammatik və nəzəri əsaslarını mənimsəyir, tədrislə yanaşı, metodik vasitələr hazırlayır, elmi əsərlər üzərində yorulmadan çalışırdı. Alim 1836-cı ildə "Birinci Kazan gimnaziyasında ərəb, fars və türk-tatar dilləri tədrisinin bölüşdürülməsi" kitabçasını yazaraq universitetin mətbəəsində çap etdirmişdir. Bu metodik vəsaitdə M.Kazımbəy gimnaziyada Şərq dillərinin tədrisinin birinci sinifdən başlanmasını və yeddinci sinfə qədər davam etdirilməsini irəli sürmüş, tədris prosesini üç dövrə ayırmışdı. Birinci dövr iki il davam etməli və bu müddətdə gimnaziya şagirdləri məşğul olacaqları müvafiq Şərq dilinin əlifbasını öyrənməli, qrammatikanın əsasları ilə tanış olmalı və asan mətnləri oxumalı, iki il davam edən ikinci dövrdə qrammatika sahəsində biliklərini təkmilləşdirməli, lüğət ehtiyatlarını zənginləşdirməli, bir dildən başqa dilə tərcümənin əsasları ilə tanış olmalı, üç il davam edən üçüncü dövrdə isə qrammatikanı tam şəkildə təkrar etməli, A.V.Boldırevin hazırladığı müntəxəbatdan müxtəlif xarakterli Şərq əlyazmalarından oxuyub tərcümə etməyi, habelə şifahi nitqlərini formalaşdırmağı bacarmalı idilər. Mirzə Kazımbəy bu metodik vəsaiti özünün elmi-pedaqoji təcrübəsi əsasında hazırlamış, hər üç Şərq dilinin öyrədilməsindəki spesifik cəhətləri də nəzərə almışdı.

Mirzə Kazımbəyə qədər ərəb və fars dillərinin qrammatikasına aid Avropa və Rusiyada müəyyən əsərlər yazılmışdısa da, türk dilinin qrammatikasına dair yalnız Holdermanın "Türk dili qrammatikası" adlı kitabı ruscaya tərcümə olunaraq Peterburq və Moskvada çap olunmuşdu. Lakin bu kitab artıq XIX əsrin 30-cu illərində Rusiya universitetlərinin tələblərinə cavab vermirdi. Artıq 1835-ci ildə Rusiyanın universitet və gimnaziyalarında yeni, elmi prinsiplərə cavab verəcək türk dilləri qrammatikasına böyük ehtiyac yaranmışdı. Mirzə Kazımbəy bu çətin və məsuliyyətli vəzifəni öz üzərinə götürmüş və bu münasibətlə popeçitel Musin-Puşkinə yazılı bir məlumat göndərmiş və bildirmişdi: "Mənə məlum olduğuna görə bizim universitetdə (Kazan Universiteti nəzərdə tutulur R.Ə.) türk dilinin (Türkiyə türkcəsi nəzərdə tutulur - R.Ə.) tədrisi siz əlahəzrətin çoxdankı arzusudur. Həqiqətən də, türk dili türk ləhcələri içərisində əsas yer tutur, öz zənginliyi ilə seçilir və bu mənada mühüm diqqət tələb edir. Onun tədrisi üçün çoxlu vəsait lazımdır. Lakin nədənsə türk dili digər Şərq dilləri ilə müqayisədə Avropa şərqşünaslarının nəzərini o qədər də cəlb etməmişdir. Rusiyada bəzi köhnəlmiş kitablar (çox güman ki, Holdermanın və O.Y.Senkovskinin əsərləri nəzərdə tutulur - R.Ə.) istisna olunarsa bu dili öyrənmək üçün heç bir vəsait yoxdur" (9, 14).

Mirzə Kazımbəy yalnız türk dilinin qrammatikasının deyil, türk ədəbiyyatının da Rusiyada öyrədilməsini qarşısına məqsəd qoymuş və bu münasibətlə popeçitelə müraciət edərək bildirmişdi ki, Almaniya, Fransa, İngiltərə və s. kimi Qərb ölkələri ilə müqayisədə türk xalqlarının dilini, ədəbiyyatını və tarixini tədqiq etmək, onlarla mədəni əlaqələri genişləndirmək üçün Rusiyanın daha real və geniş imkanları vardır. Bu əlaqələr həm türk dilinin, həm də öz tarixi taleyini Rusiya ilə bağlayan digər türk xalqlarının dillərinin öyrənilməsi ilə inkişaf etdirilə bilərdi. Bü məqsədlə Kazımbəy, ilk növbədə, yazılacaq əsərin planını tərtib edib, Rusiya Elmlər Akademiyası konfransının müzakirəsinə təqdim etmişdir. Planla tanış olan akademik X.D.Fren və professor O.İ.Senkovski onu yüksək qiymətləndirmiş və Mirzə Kazımbəyin bu işi tamalamaq üçün 6 aylığa paytaxt Peterburqa gəlməsini və burada ilkin mənbələr və mövcud ədəbiyyatla tanış olmasını zəruri hesab etmişlər. Nəhayət uzun yazışmalardan sonra Xalq Maarif Naziri Mirzə Kazımbəyin 4 aylıq paytaxta gəlməsinə və Peterburq kitabxanalarında işləməsinə icazə vermişdi (Hüseynov, 2006: 14).

1837-ci ilin fevral ayının 1-dən may ayının 25-ə qədər Peterburqda elmi ezamiyyətdə olan Mirzə Kazımbəy əsəri üçün lazımi materiallar toplamış, hələ Kazanda ikən hazırladığı qrammatika

üzərində redaktə işi aparmış, Şərq şair və tarixçilərinin əsərlərindən alınacaq nümunələri dəqiqləşdirmiş və nəhayət, 1839-cu ildə 525 səhifəlik məşhur "Türk-tatar dili qrammatikası" adlı əsərini çap etdirməyə müvəffəq olmuşdu.

"Qrammatika"nın ilk nəşri üç hissədən ibarət idi. Birinci hissədə türk dillərində istifadə olunan ərəb əlifbası, onun tələffüzü, sait səsləri, tələffüz işarələri, sifət, say, əvəzlik haqqında, ikinci hissədə fel, zərf, bağlayıcı, nida haqqında məlumat verilmiş, əsas və köməkçi fellərin şəxslər üzrə dəyişməsini göstərən cədvəllər əlavə olunmuş, üçüncü hissə isə türk dillərinin tamamilə orijinal xarakter daşıyan sintaksisinə həsr edilmişdi. Müəllif sonradan əsərin yeni nəşri üzərində işləmiş, "Türk-tatar dilinin ümumi qrammatikası" adı altında 1846-cı ildə Kazanda çap etdirmişdi. Əsərə yazdığı "Müqəddimə"dən də görünür ki, müəllif onu yenidən işləmiş, ilk iki hissəni tədqiqatlarla zənginləşdirmiş, üçüncü hissəni genişləndirmiş və tamamilə yeni sistemə salmış, fonetika və morfologiyanı əhatə edən birinci hissəni 8 fəslə, feldən başlamış köməkçi nitq hissələrini əhatə edən ikinci hissəni 11 fəslə, sintaksisdən bəhs edən üçüncü hissəni isə 3 fəslə ayırmış, müqayisəli linqvistik təhlili daha da genişləndirmiş və yeni nümunələrlə zənginləşdirmişdi (6).

Rusiya türkologiya elminin inkişafında dönüş nöqtəsi olan Mirzə Kazımbəyin "Qrammatika"sı Rusiyada türk dillərinin tədris edildiyi əksər məktəb, gimnaziya və universitetlərdə tədris edilmiş, əsər rəsmi dairələrdə də razılıq hissi ilə qarşılanmış, onun bir nüsxəsi şəxsən çara təqdim edilmiş və çar II Nikolay tərəfindən Kazımbəy brilyant üzüklə mükafatlandırılmış, 1841-ci ildə Rusiya Elmlər Akademiyasının "Demidov mükafatı"na layiq görülmüş, dövrün bütün şərqşünas alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, akademik Dorn əsərə yazdığı rəydə onu "Rusiyada şərqşünaslıq elminin son illərdəki coşqun inkişafının qanunauyğun nəticəsi hesab etmiş və göstərmişdi: "Türk-tatar dilinin qrammatikası" Rusiya üçün çoxdan hiss olunan bir ehtiyac idi. Həm də belə bir əsərin dilə tam bələd olan, hələ uşaq yaşlarından, beşikdən başlayaraq onun bütün incəliklərini mənimsəyən və bunu Avropa elmi ilə məharətlə sintez edən bir şərqli tərəfindən yazılması daha çox arzu olunurdu. Biz elə "Qrammatika" almışıq ki, tərəddüd etmədən indiyə qədər nəşr olunmuş dilçilik kitabları ilə müqayisədə ona üstünlük verə bilərik" (8,169).

Bu əsərdə həmin vaxta qədər türkologiya elminin diqqətindən kənarda qalan Azərbaycan türkcəsinə mühüm diqqət yetirməsini akademik Dorn əlamətdar bir hal saymış və göstərmişdi ki, "təkcə bu dil (Azərbaycan türkcəsi nəzərdə tutulur - R.Ə.) haqqında kitabda irəli sürülən fikirlər Kazımbəyin əsərinə xüsusi əhəmiyyət gətirir… "Qrammatika" həm elmi əsər, həm də tədris vəsaiti kimi eyni dərəcədə uğurludur. Bir sözlə, biz tərəddüd etmədən bu vaxta qədər nəşr olunmuş bütün qrammatikalardan üstün olduğunu təsdiq etdiyimiz qrammatika əldə etmişik".

İ.N.Berezin, V.V.Qriqoryev, V.Şott və digər tanınmış rus və alman türkoloqları da əsərin əhəmiyyəti və elmi məziyyətləri haqqında nüfuzlu jurnallarda məqalələr çap etdirmişdilər. Bu əsəri ilə Mirzə Kazımbəy türk dillərinin sintaksisini öyrənmək sahəsində təkcə Rusiyada deyil, Avropada da ilk addım atanlardan olmuşdur. Akademik İ.Y.Kraçkovski əsəri yüksək qiymətləndirmiş, məşhur türkoloq A.N. Kononov göstərmişdi ki, A.N. Samoyloviçin türk dili qrammatikasına dair türkologiyada dönüş nöqtəsinə çevrilən kitabı çapdan çıxana qədər (1925-ci ildə - R.Ə.) Mirzə Kazımbəyin əsəri təxminən yüz ilə yaxın müddət ərzində elmi fikirdə və tədris prosesində öz birinciliyini qoruyub saxlamışdır (Bartold, 1925: 52).

Əsər xarici şərqşünasların da diqqətini cəlb etmiş və 1848-ci ildə alman şərqşünası D.Y.Senker onu alman dilinə çevirib Leypsiqdə Berezinin "Mirzə Kazımbəyin "Qrammatika"sına əlavələri "ilə birgə çap etdirmş və bu" bütün XIX əsr boyu türk dilinin öyrənildiyi Avropa ali və orta məktəblərində əsas tədris vasitələrindən biri olmuşdur (Bartold, 1925: 52). Mirzə Kazımbəyin şəxsiyyətini və yaradıcılığını yüksək qiymətləndirən fransız türkoloqu O.Bothinqə görə "bu istedadlı alimin əsərlərində biz həmişə fikir inciləri tapa bilirik. Dilin əsasları onun əsərində son dərəcə aydın şəkildə izah olunmuşdur" (Krachkovskiy, 1950: 556).

Türk dilləri üzrə mükəmməl dərs vəsaiti hazırlamağı qarşısına məqsəd qoyan Mirzə Kazımbəy "Qrammatika"nı çap etdirdikdən sonra əsas diqqətini müntəxəbatın tərtibinə yönəltmiş, onun birinci hissəsini hazırlamış, buraya tatar, Azərbaycan və Türkiyə türkcələrində materiallar, Bulqar tarixindən fraqmentlər, "Dərbəndnamə"dən müxtəlif parçalar, Azərbaycan atalar sözləri, Təbəri

tarixi və "Qabusnamə"nin türkcə tərcüməsindən seçilmiş parçalar daxil etmiş, müntəxəbatın sonuna 50 səhifəlik izah və şərhlərdən ibarət hissə əlavə etmişdir. Müntəxəbat çap üçün mətbəəyə göndərilmiş, lakin şrift çatışmamazlığı üzündən çap işi ləngimiş və sonda 1842-ci il Kazanda baş verən dəhşətli yanğın nəticəsində şəhərin böyük bir hissəsi ilə yanaşı universitetin mətbəəsinə də ciddi ziyan dəymiş, oradakı "Müntəxəbat" və "Dərbəndnamə"nin də böyük bir hissəsi yanıb məhv olmuşdu. Bu münasibətlə V.A.Dorna yazdığı bir məktubunda M.Kazımbəy deyir: "Bizim zavallı şəhər üç günlük dəhşətli yanğından böyük ziyan çəkmiş, Kazanın yarısı demək olar ki, yanıb külə dönmüşdür. Mənim yaşadığım… evin içərisindəki əşyaların hamısı yararsız hala düşüb… "Müntəxəbat"ın və "Dərbəndnamə"nin bəzi hissələri həmişəlik məhv olub… Kitablarımın da çoxu yanıb. Vəziyyətimi bir az düzəltməkdən ötrü əlimdə olan əsərləri çap etmək üçün yollar axtarıram…" (Quliyev, 1987: 16).

M.Kazımbəy Kazanda olarkən lüğət üzərində də işləmiş, təxminən üç min sözdən ibarət Türkcə-rusca sözlük hazırlamış, lakin bir çox səbəblərə görə onu çap etdirməyə müvəffəq olmamışdı. Bu sözlük Tatarıstan Mərkəzi Dövlət Arxivində alimin şəxsi fondunda saxlanılır. Həmin sözlükdə Kazımbəy (Türkiyə türkcəsini) əsas götürərək dövrün "elmi fikrinin imkanları səviyyəsində bu sistemə daxil olan dillərin müqayisəli qrammatikasını yaratmağa çalışmışdı. Eyni prinsip lüğətin təbrikində də gözlənilmişdi" (Qasımova, 1999: 80).

Bir maarifçi kimi Mirzə Kazımbəyi düşündürən ən mühüm məsələlərdən biri də mənsub olduğu xalqın övladlarının, ümumiyyətlə çar Rusiyasındakı türk xalqlarının nümayəndələrinin ali təhsil alması olmuş, bununla bağlı o çox düşünüb-daşınmış, yollar axtarmış, din xadimləri, mədrəsə müdirləri ilə əlaqə saxlamış, nüfuzlu müsəlman feodallarını xalqın maariflənməsi işinə cəlb etməyə səy göstərmiş, Kazan Universitetinin fəxri üzvlərindən olan, elmə rəğbət bəsləyən qazaxların Bukey ordasının xanı Cahangir Bukayevin köməyi ilə bir sıra tatar və qazax gənclərin universitet tələbəsi olmasına nail olmuş, onların elmlərə yiyələnmələri üçün əlindən gələni əsirgəməmişdir. Rektor Lobaçevski və popeçitel Musin-Puşkinlə yaxınlığı Kazımbəyi müsəlman gənclərinin gimnaziya və universitetlərə cəlb etməkdə konkret addımlar atmağa ruhlandırmış, bu məqsədlə o, rus, tatar və fars dillərində ölkənin müsəlman əhalisinə bir "Müraciət" hazırlamış, Musin-Puşkinin vasitəsilə Xalq Maarifi Nazirliyindən icazə alınmış, universitet mətbəəsi direktorunun səyi nəticəsində türk-tatar dilində 500, fars dilində 400 nüsxə tirajla çap edilərək yerli müftilərin köməyi ilə yaymaq üçün Tavriya və Tiflis mülki qubernatorlarına göndərilmişdi. Kazımbəy hazırladığı bu geniş "Müraciət" də Rusiyanın türkdlilli əhalisini fikrən də olsa tarixi keçmişə nəzər salmağa və öz əcdadlarının şanlı ənənələrini yaşatmağa, davam etdirməyə səsləyir, Şərqin zəngin mədəni ənənələrini qorumağı və türk xalqlarını həmin ənənələrin davamçısı kimi görmək istəyir. O yazırdı: "Onlar bir zaman müsəlmanların maarif sükanını öz əllərində tutduqlarını və maarifin buradan Avropaya yayıldığını ya unutmuş, ya da bilmirlər… Şöhrətlərinin əks-sədası hələ də dillərdə dolaşan müsəlman alimlərinin həyatlarının mənasını, cövhərini təşkil edən yorulmaz elmi fəaliyyət ehtirası haradadır? Hamının maarifə can atdığı, hər bir müsəlmanın ləyaqət və əməllərinin onun savadlılığı ilə ölçüldüyü zamanlar harada qalmışdır?... Qoy onlar (Rusiyadakı türklər nəzərdə tütülurdu - R.Ə.) bu həqiqətə şahid olsunlar! Qoy onlar sizin uşaqlarınızı dəvət etdiyimiz təhsilin faydası və əhəmiyyəti barəsində sizə zamin dursunlar" (13, 2-3).

Nəticə

Nəticə olaraq qeyd etmək olar ki, böyük alim, mütəfəkkir uzun müddət vətənindən uzaqlarda yaşayıb, fəaliyyət göstərsə də, daim vətəninin, millətinin, dininin, təəssübünü çəkmiş, millətinin yüksəlişinə, mənəvi dəyərlərinin inkişafına çalışmışdır. Onun mədrəsə təhsilindən yüksək elmi adlara və rütbələrə nail olması bir daha sübut etmişdir ki, o, nə qədər istedadlı və zəhmətkeş bir ziyalı olmuşdur.

Ədəbiyyat

1. Əfəndiyev, M. (2006). Siyasi və hüquqi təlimlər tarixi. Bakı.
2. Fəlsəfə ensiklopedik lüğəti. (1997). Bakı: Azərbaycan Ensiklopediyası.
3. Tatarıstan MDA, f. 92, iş 5596.11.
4. Əhmədli, R.A. (2012). Mirzə Kazımbəyin ictimai fikirləri. Bakı: ADPU-nin nəşri.
5. Rusiya MDTA. f. 778, iş 130.
6. Hüseynov, H.N. (2006). XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı.
7. "Dirçəliş-XXI əsr". (1998). № 1.
8. Russkiy arkhiv. (1983). SPB.
9. Bartol'd, V.V. (1925). Istoriya izucheniya Vostoka v Yevrope i Rossii. Izd.2-ye. L.
10. Krachkovskiy, I.Yu. (1950). Ocherki po istorii russkoy arabistiki. M. L.
11. Quliyev, V. (1987). Mirzə Kazımbəy. Bakı: Yazıçı.
12. Qasımova, S.B. (1999). Mirzə Kazımbəyin tarixi baxışları. Avtoreferat. Bakı.
13. Tatarıstan MDA, f. 92, iş 4333.

Göndərildi: 19.12.2022 Qəbul edildi: 14.03.2023